# *İZZƏDDİN HƏSƏNOĞLU*

Ayırdı könlümü bir xoş qəmər yüz, canfəza dilbər,
Nə dilbər? Dilbəri-şahid. Nə şahid? Şahidi-sərvər.

Mən ölsəm sən büti-şəngül sürahi, eyləmə, qül-qül,
Nə qül-qül? Qül-qüli badə. Nə badə? Badeyi-əhmər.

Başımdan getmədi hərgiz səninlə içdiyim badə,
Nə badə? Badeyi-məsti. Nə məsti? Məstiyi-sağər.

Şəha, şirin sözün qılır Misrdə bir zaman kasid,
Nə kasid? Kasidi-qiymət. Nə qiymət? Qiyməti-şəkkər.

Tutuşmayınca dər ateş bulunmaz xisləti-ənbər,
Nə ənbər? Ənbəri-suziş. Nə suziş? Suzişi-məcmər.

Əzəldən cam içində yazıldı surəti-məni.
Nə məni? Məniyi-surət? Nə surət? Surəti-dəftər.

Həsənoğlu sənə gərçi duaçıdır, vəli sadiq,
Nə sadiq? Sadiqi-bəndə. Nə bəndə? Bəndeyi-çakər.

* * *

Necəsən, gəl, ey yüzü ağım bənim?
Sən əritdin odlara yabım bənim,
And içərəm səndən artıq sevməyim,
Sənin ilə xoş keçər canım bənim,
Hüsn içində sana manənd olmaya,
Əsli yuca, könlü alçağım bənim.
Al əlimi irəyim məqsudimə,
Qoyma yürəkdə yana dağım bənim.
. . . . . . . . . . . . . . .
. . . . . . . . . . . . . . .
Sən rəqibə sirrini faş eylədin,
Anun ilə oldu şımtağım bənim.
Qışladım qapında itlərin ilə,
Olu kuyin üşdə yaylağım bənim.
Bən ölücək yoluna gömün bəni,
Baqa dursun yarə toprağım bənim.
Toprağımda bitə həsrətlə ağac,
Qıla zari cümlə yaprağım bənim.
Bu Həsənoğlu sənin bəndən dürür
Anı rədd etmə, yüzü ağım bənim.